**“AZƏRBAYCAN HAVA YOLLARI”**
**QAPALI SƏHMDAR CƏMİYYƏTİ**
**MİLLİ AVİASİYA AKADEMİYASI**

*Əlyazması hüququnda*

**XƏLİLOV ZAFİQ ZAKİR OĞLU**

# BEYNƏLXALQ HAVA HÜQUQUNDA “HAVA AZADLIQLARI”NIN NƏZƏRİ VƏ PRAKTİKİ PROBLEMLƏRİ

İxtisas: 5603.01– Beynəlxalq hüquq; insan hüquqları

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı– 2014**

**Dissertasiya işi Milli Aviasiya Akademiyasının**
**"Hüquqşünaslıq" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Quliyev İbrahim Oruc oğlu**
hüquq elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **Əfəndiyev Oqtay Firudin oğlu**
hüquq elmləri doktoru

**Quliyev Cəmşid Yuris oğlu**
hüquq üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** **Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu**

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın müdafiəsi 25 oktyabr 2014-cü il tarixdə saat ____-da "Azərbaycan Hava Yolları" QSC Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən FD.06.011 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1045, Bakı şəhəri, Binə qəsəbəsi, 25-ci km, Aviaşəhərcik, 3-cü tədris korpusu, akt zalı

Dissertasiya işi ilə Azərbaycan Milli Aviasiya Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" sentyabr 2014-cü il tarixdə göndərilmişdir.

**FD 06.011**
**Dissertasiya Şurasının elmi katibi,**
**hüquq üzrə fəlsəfə doktoru, dosent** **F.T.Nağıyev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Bir əsrə yaxın tarixi olan mülki aviasiya insanların səmalara hakim olma istəyindən yaranmış və hal-hazırda sürətli inkişaf dövrünü keçirən bir sahəyə çevrilmişdir. Digər tərəfdən qeyd olunmalıdır ki, hava nəqliyyatı sənayesi digər nəqliyyat sənayeləri arasında ən gənc olmasına baxmayaraq, bəlkə də hal-hazırda bu sahə ən tanınmış və ən rahat beynəlxalq səyahət vasitəsi hesab edilir. Dünyanın bütün nöqtələri ilə hava nəqliyyatı əlaqələrinin təşkilində ən önəmli sahəyə çevrilən aviasiya daima dövlətlərin və beynəlxalq təşkilatların diqqət mərkəzindədir. Çünki məhz mülki aviasiya dövlətlərarası iqtisadi və sosial əlaqələrin qurulması və inkişaf etdirilməsində ən effektiv vasitə hesab olunur. Bu gün beynəlxalq mülki aviasiya ümumdünya nəqliyyat sistemində ən etibarlı və ən sürətli nəqliyyat növü olaraq beynəlxalq iqtisadi inkişaf prosesinə mühüm təsir göstərərək dünya infrastrukturunun vacib hissələrindən biri kimi qəbul olunur.

Təkcə onu qeyd etmək olar ki, 2012-ci ildə hava nəqliyyatı ilə səyahət edənlərin sayı 2 mlrd, beynəlxalq aviadaşıyıcılar tərəfindən daşınan yükün həcmi isə 60 mln tondan çox təşkil etmişdir.[1] Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (İATA) rəsmi məlumatına əsasən 2013-cü ildə 2012-ci illə müqayisədə beynəlxalq hava daşımalarına olan tələbat 6%, daxili daşımalara isə 4% artıb.[2] Dünyanın 194 dövləti arasında müntəzəm və fasiləsiz şəkildə həyata keçirilən beynəlxalq sərnişin və yük hava daşımaları ümumilikdə beynəlxalq hava nəqliyyatı iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir göstərir.

Aviasiyanın bugünkü tərəqqisi, onun gələcək inkişaf perspektivləri mütəmadi olaraq bu sahənin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi məsələlərini ön plana çəkir. Beynəlxalq hava hüququ tənzimlədiyi münasibətlər baxımından müasir hüquq sistemində önəmli rola malikdir. Son illərdə həm xarici ölkələrdə, həm də milli hüquq ədəbiyyatında hava hüququnun nəzəri və praktiki problemlərinin araşdırılması hüquqşünas alimlərin ən çox diqqətini cəlb edən məsələlərdən biridir. Ümumiyyətlə, mülki aviasiyanın inkişafının başlandığı dövrdən etibarən dövlətlər hər vasitə ilə öz ərazilərində aviaşirkətlərin kommersiya fəaliyyətinin hüquqi

---

[1] Егоров С. А. Международное право: Учебник / 5-е изд., перераб. и доп. – М.: Статут, 2014, с. 521.

[2] İATA: Bu il dünyada hava nəqliyyatı ilə sərnişindaşıma və yükdaşımanın artacağı gözlənilir. Azəri-Press Agentliyinin (APA) rəsmi internet səhifəsi - http://az.apa.az/news/289758

tənzimlənməsini və ona nəzarət edilməsini diqqət mərkəzində saxlamağa çalışmışlar. Hər bir istismarçı - aviaşirkət hava daşımaları zamanı ona müəyyən məntəqələrarası sərnişin, yük və poçtu daşımaqla kommersiya fəaliyyətini həyata keçirməyə imkan verən müəyyən kommersiya hüquqlarından istifadə edir. Beynəlxalq hüquq ədəbiyyatında bu kommersiya hüquqlarının digər adı "hava azadlıqları" kimi xarakterizə edilir. Hava nəqliyyatı sahəsindəki beynəlxalq hüquqi aktlarda müəyyən edilən "hava azadlıqları" termini öz-özlüyündə beynəlxalq hava əlaqələrinin kommersiya fəaliyyətinin hüquqi tənzimlənmə növlərini ehtiva edir. Qeyd olunan termin sadə dildə desək, uçuşların həyata keçirilmə hüququnu bildirir. Bir çox hüquqşünas alimlərin qeyd etdiyi kimi, bu hüquqlar daşıma hüquqları və ya hava daşıması hüquqları kimi də şərh edilir. Adıçəkilən hüquqların kommersiya xüsusiyyəti onun gəlirə əsaslanmasından irəli gəlir. Beynəlxalq hava hüququnda "hava azadlığı" kimi adlandırılan termin aviaşirkətlərə kommersiya fəaliyyətinin həyata keçirilməsinə ümumi hüquq verir. Müasir dövrdə hava əlaqələrinin hüquqi tənzimlənməsində "hava azadlıqları" (kommersiya hüquqları) məsələsi əsas problemlərdən biri kimi qəbul edilir. "Hava azadlıqları" ilə bağlı nəzəri məsələlərin müqayisəli formada təhlil olunaraq daha məqsədəuyğun şəkildə formalaşdırılması, bu hüquqlarla əlaqəli beynəlxalq və milli qanunvericiliyin davamlı olaraq təkmilləşdirilməsi, praktikada mövcud olan mühüm problemlərin hüquqi aspektlərinin beynəlxalq standartlar çərçivəsində həlli müasir beynəlxalq hava hüququnun ən vacib və zəruri istiqamətlərindən biri hesab olunur. "Hava azadlıqları"nın verilməsi və ya hava əlaqələri haqqında sazişlərdə qeyd edildiyi kimi təqdim edilməsi dövlətin mühüm hüquqlarından biridir. Bu hüquqlar hər bir dövlətin suverenliyi ilə sıx şəkildə bağlı olan kateqoriya kimi səciyyələndirilməlidir. Eyni zamanda bu hüquqlar dövlətin hava daşımaları bazarına daxil olması üçün əsas rolunu oynayır. Dövlətlər arasında hava əlaqələri haqqında sazişlər, əsas mahiyyəti və məzmunu baxımından kommersiya "hava azadlıqları" haqqında müqavilə kimi başa düşülməlidir. Çünki dövlətlər arasında bağlanılan bütün bu tipli kommersiya məsələlərini tənzimləyən ikitərəfli müqavilələrin başlanğıcında məhz hansı "hava azadlıqları"nın mübadilə edilməsi məsələləri müəyyən edilir. Dünyada nə qədər hava əlaqələri haqqında sazişlər bağlanılırsa, o qədər də bu sazişlərdə təsbit edilən kommersiya hüquqları və onların reallaşdırılma məsələləri ilə bağlı problemlərin təkmilləşdirilmə perspektivləri ortaya çıxır. Bu baxımdan aviaşirkətlərin kommersiya fəaliyyətinin hüquqi aspektlərinin tənzimləyici

mexanizminin nəzəriyyəsi göstərilərək onun praktikaya təsiri və müvafiq sahədə qanunvericilik bazasının təkmilləşdirilməsinin nə dərəcədə əhəmiyyətli olması məsələləri qabarıq şəkildə aydınlaşdırılmalıdır. "Hava azadlıqları"nın hüquqi tənzimlənməsi ilə bağlı çoxsaylı məsələlər beynəlxalq hüquq ədəbiyyatında hələ də öz həllini tapmamış və bu səbəbdən də, mövzu daima öz aktuallığı ilə seçilir. Nəticədə bu sahədə kompleks xarakterli tədqiqatlara böyük ehtiyac yaranmışdır. Yuxarıda qeyd edilənlərə istinadən, tədqiqat mövzusu həm nəzəri, həm də praktiki əhəmiyyətə malikdir, müasirdir, vaxtında seçilməklə aktualdır.

Göründüyü kimi, beynəlxalq hava hüququ daxilində "hava azadlıqları"nın nəzəri, həm də praktiki problemlərinin araşdırılması və aradan qaldırılması günümüzün aktual mövzularından biri hesab olunur.

**Tədqiqat mövzusunun araşdırılma dərəcəsi.** Azərbaycan hüquq ədəbiyyatında beynəlxalq hava hüququ keçən əsrin 80-ci illərindən başlayaraq araşdırılmağa başlanılmışdır. Qeyd etməliyik ki, "Beynəlxalq hüquq" sahəsi üzrə dərslik müəllifləri olan hüquqşünas alimlər L.H.Hüseynov, R.F.Məmmədov və başqaları beynəlxalq hava hüququnu ümumi şəkildə şərh ediblər. Adıçəkilən alimlər beynəlxalq hava hüququnun əsas sahələrindən biri olan "hava azadlıqları"nı (kommersiya hüquqlarını) qısa formada analiz etmişlər. Eyni zamanda E.Ə.Əliyev "Beynəlxalq nəqliyyat hüququ", "Beynəlxalq daşımaların hüquqi tənzimlənməsi" adlı dərs vəsaitlərində beynəlxalq hava daşımalarının hüquqi tənzimlənməsi ilə bağlı məsələlərin şərhi zamanı "hava azadlıqları"nı xüsusi qeyd etmiş və müəyyən izahlar vermişdir. "Hava azadlıqları" ilə bağlı əsaslı xüsusiyyətlərin aydınlaşdırılmasına hüquqşünas alim İ.O.Quliyevin də bir çox məqalələrində rast gəlmək mümkündür. Bununla yanaşı, hüquqşünas alimlərdən F.İ.Qurbanovanın "Beynəlxalaq hava hüququnun normaları və Azərbaycan qanunvericiliyi (qarşılıqlı əlaqə məsələləri)", G.Z.Bəşirovanın "Azərbaycan Respublikasında beynəlxalq hava əlaqələrinin hüquqi tənzimlənməsinin problemləri", S.X.Mürşüdovanın "Azərbaycan Respublikasının mülki aviasiya təhlükəsizliyinin təmin edilməsinin konstitusion – hüquqi problemləri", A.Ə.Məmmədovun "Beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində tətbiq edilmə problemləri" adlı elmi-tədqiqat işləri də, öz növbəsində, beynəlxalq hava hüququnun bəzi sahələrinə həsr olunmuş mühüm elmi əsərlər hesab olunur. Buradan da məlum olur ki, beynəlxalq hava hüququ ölkəmizdə kifayət qədər araşdırılmamış və az tədqiq edilən hüquq sahələrinə aiddir. Yuxarıda qeyd edilən elmi-tədqiqat işləri sırasında sadəcə

A.Ə.Məmmədovun və G.Z.Bəşirovanın dissertasiya işlərində "hava azadlıqları" ilə bağlı ümumi məsələlər qeyd edilmişdir. Bu gün ölkəmizdə elmi ictimaiyyət tərəfindən beynəlxalq hava hüququnun əsas mövzularından biri olan "hava azadlıqları"nın geniş və kompleks şəkildə tədqiqinə hal-hazırki vaxta kimi lazımi səviyyədə diqqət yetirilməmişdir. Bu sahədəki hüquqi tənzimləmə fəaliyyətinin elmi-tədqiqatı nöqteyi-nəzərindən ölkədə uzun illərdir ki, elmi-nəzəri təsəvvürlərin qıtlığı hiss olunur.

Qonşu ölkə Rusiyada isə bu mövzuyla əlaqəli hələ SSRİ dövründən - 60-cı illərdən etibarən kifayət qədər elmi-tədqiqat işləri və monoqrafiyalar mövcuddur. Beynəlxalq hava hüququ və "hava azadlıqları" ilə bağlı məsələlərdə bir çox mühüm istiqamətləri müəyyən edən və bu hüquq sahəsinin araşdırılmasına böyük təkan verən rus hüquqşünas alimlərindən aşağıdakıları qeyd edə bilərik: A.N.Vereşaqin, V.S.Qryaznov, V.N.Dejkin, A.A.Batalov, M.Keyta, V.D.Bordunov, Y.N.Maleyev, A.P.Movçan, A.İ.Kotov, Y.M.Kolosov, İ.A.Kruqlova, A.N.Brılov, A.V.Mezentsev, A.İ.Travnikov, M.N.Kopılov, F.İ.Saprıkin, S.S.Yuryev, B.P.Eliseyev, V.A.Svirkin və s. Sadalanan hüquqşünas alimlərdən V.S.Qryaznovun, Məhəmməd Keytanın, A.A.Batalovun, F.İ.Saprıkinin məhz bu sahədə olan problemlərin araşdırılmasının bir qismini əhatə edən elmi əsərlərini qeyd etmək olar. Bunlardan Məhəmməd Keytanın 1990-cı ildə müdafiə etdiyi "Beynəlxalq hava əlaqələrində kommersiya fəaliyyətinin hüquqi tənzimlənməsi" adlı dissertasiya işi, F.İ.Saprıkinin 1996-cı ildə uğurla müdafiə etdiyi "MDB-yə üzv dövlətlərin hava məkanından istifadəsi ilə bağlı beynəlxalq-hüquqi problemlər" adlı dissertasiya işi, V.S.Qryaznovun "Hava nəqliyyatının beynəlxalq hüquqi tənzimlənməsinin bəzi tendensiyaları" adlı 1996-cı ildə Moskvanın "Beynəlxalq hüquq" jurnalında dərc olunan məqaləsi və s. göstərmək olar. A.A.Batalovun 2003-cü ildə Moskvada müdafiə etdiyi "Hava əlaqələrinin beynəlxalq-hüquqi tənzimlənməsinin müasir problemləri" adlı dissertasiya işi son illərdə yazılmış bitkin və müasir monoqrafik tədqiqatlardan biri kimi qiymətləndirilir. Beynəlxalq hava hüququnda "hava azadlıqları"nın hüquqi tənzimlənməsi məsələləri nəinki rus hüquqşünas alimləri, eyni zamanda, bir çox beynəlxalq hüquqşünas alimlərin də tədqiqat işlərində özünəməxsus tərzdə işıqlandırılmışdır.[3]

---

[3] Баталов А.А. "Современное международное-правовое регулирование воздушных сообщений: Теория и практика", Москва – 2008, с. 27-52;

İkinci dünya müharibəsi mərhələsindən sonrakı dövrdə Amerikalı hüquqşünas alim Vençeslas Cozef Vaqnerin “Hava azadlıqları” adlı monoqrafiyası bu sahədə yazılan mühüm əsərlərdən biri kimi ön plana çıxır. [4] Ümumiyyətlə, XX əsrdə beynəlxalq hava hüququnda hava əlaqələrinin hüquqi tənzimlənməsi və “hava azadlıqları”nın təhlili ilə bağlı dünyanın bir sıra hüquqşünas alimləri mühüm elmi əsərlər yazmışlar: P.Foşil (Fransa), A.Ambrozini (İtaliya), D.Qardner (ABŞ), F.Kozentini (İtaliya), D.Kroel, M.Lemuan (Fransa), X.Politis (Yunanıstan), Ç.Hayd (ABŞ), H.Hudxoys (Hollandiya), N.M.Matte (Rumıniya), M.Milde (Çexiya), P.Xanaypel, Q.Vasenberq (Hollandiya) və s.[5] Son illərdə “hava azadlıqları” mövzusunu araşdıran alimlərdən Dmitri Andriotisi xüsusilə qeyd etməliyik. O, 1993-cü ildə Kanadanın Makgil universitetinin Hava və Kosmos hüququ institutunda “XXI əsrin astanasında beynəlxalq hava nəqliyyatında kommersiya hüquqları və onların tənzimlənmə rejimi” adlı dissertasiyasını müdafiə etmiş və tədqiqat işində “hava azadlıqları” ilə bağlı bəzi hüquqi problemləri işıqlandırmağa çalışmışdır.[6]

Qeyd olunmalıdır ki, Türkiyə hüquq ədəbiyyatında da bir çox hüquqşünas alimlər (Mehmet Cemil Bilsel, Tahir Çağa, Nedim Göknil, İnci Kaner, Kübra Yetiş Şamlı [7], Mesut Önen, Bülent Sözer, İlyas Çeliktaş, Nazlı Can[8], Sami Aksoy, Cemal Şanlı, Meltem Deniz Güner-Özbek, Yaşar Öztürk[9], Tunay Köksal[10], Reşat Volkan Günel, Ayhan Sorgucu[11] və s.)

---

[4] İndiana University Maurer School of Law Faculty Publications, Wenceslas Joseph Wagner http://law.indiana.edu/lawlibrary/services/bibliography/WenceslasJosephWagner.shtml

[5] “Правовой статус воздушного пространства на современном этапе” тема диссертации и автореферата по ВАК 12.00.10, кандидат юридических наук Круглова, Инна Александровна http://www.dissercat.com/content/pravovoi-status-vozdushnogo-prostranstva-na-sovremennom-etape “Международно-правовые проблемы разработки и принятия универсальной (всеобщей) конвенции по воздушному праву” тема диссертации и автореферата по ВАК 12.00.10, кандидат юридических наук Самородова, Екатерина Александровна http://www.dissercat.com/content/mezhdunarodno-pravovye-problemy-razrabotki-i-prinyatiya-universalnoi-vseobshchei-konventsii-

[6] Dimitri Andriotis, dissertation: “Commercial rights in International Air Transport and their regulatory regime on the eve of the twenty-first century: a diabolic issue?” Institute of Air and Space Law, McGiIl University, Montreal, August 1993;

[7] İstanbul Üniversitesi Hukuk Fakültesi, akademik kadro, öğretim üyeleri - Yard.Doç.Dr.Kübra Yetiş Şamlı http://istanbuluniversitesi.hukukfakultesi.gen.tr/akademisyen.asp?ID=13

[8] “Avrupa ve Türkiyede Hava Hukuku konusunda son gelişmeler” Koç Universitesi Hukuk Fakültesi Dr. Nüsret-Semahet Arsel Uluslararası Ticaret Hukuku Uygulama ve Araştırma Merkezi Konferans Yayınları, Dizisi – 3 (Legal) İstanbul – 2010, s. 32;

[9] Hava hukuku – I, Av.Yaşar Öztürk.Yayın evi belirtilmemiş, Samsun – 2010, səh. 425-431;

[10] Tunay Köksal, “Uluslararası sivil havacılık hukuku” Tunay Köksal, Yayın evi belirtilmemiş – Ankara 2011;

“hava azadlıqları”nın hüquqi tənzimlənməsinin ümumi istiqamətləri ilə bağlı bəzi məsələləri öz elmi əsərlərində qeyd ediblər. Adıçəkilən alimlər arasında Reşat Volkan Güneli xüsusilə vurğulamalıyıq. R.V.Günelin “Beynəlxalq hüquq nöqteyi-nəzərindən “açıq səma” sazişi müddətində aviasiya tənzimləmələrinin dəyişilməsi” adlı dissertasiya işində və daha sonra dərc etdirdiyi “Beynəlxalq aviasiya hüququ” adlı monoqrafiyasında aviaşirkətlərin kommersiya hüquqlarının (“hava azadlıqları”nın) tənzimlənmə mexanizminin müasir vəziyyəti, beynəlxalq hava hüququ normalarının liberallaşma prosesinin zəruriliyi və iqtisadi duruma təsiri xüsusiyyətləri ətraflı təhlil edilmişdir.[12]

Çin Xalq Respublikasının tanınmış alimlərindən “Beynəlxalq hava nəqliyyatı hüququ” monoqrafiyasının müəllifi Bin Çenqi[13], “Mülki hava gəmilərinin beynəlxalq uçuşunun hüquqi tənzimlənmə sisteminin formalaşması və inkişafı” adlı dissertasiyanın müəllifi Lyu Sini və s. göstərmək olar.[14]

Hal-hazırda da məhz bu mövzuda əsaslı tədqiqatları aparan və aviaşirkətlərin kommersiya hüquqlarının müasir hüquqi tənzimləmə tendensiyalarını müəyyən edən hava və kosmos hüququ sahəsində tanınmış alimlərin rəhbərlik etdiyi bir sıra beynəlxalq elmi-tədqiqat institutlarını qeyd edə bilərik. Məsələn, Kanadanın Monreal şəhərində yerləşən Makgil Universitetinin Hava və Kosmos hüququ İnstitutunun direktoru Prof. Pol Stefan Dempsi[15], ABŞ-ın Çikaqo şəhərində yerləşən De Pol Universitetinin Hüquq Kollecinin beynəlxalq əlaqələr üzrə dekanı və Beynəlxalq aviasiya hüququ institutunun direktoru, professor Brayn Xavel[16], Avropanın Hava hüququ Asossiasiyasının prezidenti, Hollandiyanın Leyden Universitetinin Beynəlxalq Hava və Kosmos hüququ İnstitutunun direktoru Prof. Pablo

---

[11] Ayhan Sorgucu, “Hava ve Uzay hukuku” (Air & Space Law) Adalet Yayın evi – Ankara 2012, səh. 15;

[12] R.V.Günel “Uluslararası havacılık hukuku” (İnternational Aviation Law) Beta - İstanbul 2010, səh. 129-137;

[13] Bin Cheng, The Law of International Air Transport, Sweet & Maxwell, 1977, p 17;

[14] Международные полеты гражданских воздушных судов. Безопасность. Право. Лю Синь ; науч. ред. Л. Б. Архипова ; отв. ред. В. Д. Бордунов. – Москва.: Издательство НИМП: Омега-Л, 2013. с. 7-8.

[15] McGill University's İnstitute of Air and Space Law, Canada; Paul Stephen Dempsey, Full Professor and Director, İnstitute of Air and Space Law, https ://www.mcgill.ca/law/about/profs/dempsey-paul

[16] USA, Chicago DePaul University College of Law, Faculty Directory, Brian F. Havel, Dean of International Affairs, Director, International Aviation Law Institute, Distinguished Research Professor of Law. http://www.law.depaul.edu/faculty_staff/faculty_information.asp?id=38

Mendes De Leon[17], Almaniyanın Köln Universitetinin Hava və Kosmos hüququ İnstitutunun direktoru Prof. Stefan Hobe [18], Finlandiyanın Laplandiya Universitetinin Hava və Kosmos hüququ İnstitutunun direktoru Lotta Vikari [19], ABŞ-ın Missisipi Universitetinin Hüquq məktəbinin məsafədən zondlanma, hava və kosmos hüququ üzrə milli mərkəzinin direktoru Prof. Cohanna İren Qabrinoviç [20] və s.

Dissertasiya işində yuxarıda qeyd olunan bir çox alimlərin dissertasiya, monoqrafiya və məqalələrinə aidiyyəti məsələlərlə bağlı çoxsaylı istinadlar edilmişdir. Nəzəri baxımdan mövzuya yaxın hesab edilə bilən bir sıra dissertasiya işləri mövcuddur. Lakin mövzunun bu formada xüsusi araşdırılmasına həm milli, həm də beynəlxalq hüquq ədəbiyyatında rast gəlinməmişdir. Hal-hazırda Azərbaycan və beynəlxalq hüquq ədəbiyyatında kompleks yanaşma əsasında beynəlxalq hava hüququ çərçivəsində "hava azadlıqları"nın nəzəri və praktiki problemlərini araşdırılmasını əsas tutan elmi tədqiqat işi demək olar ki, mövcud deyil. Eyni zamanda nəzərdən keçirilən elmi-tədqiqat işi nə ölkə daxilində, nə də ki, beynəlxalq səviyyədə geniş araşdırma mövzusu olmamışdır. Qeyd etməliyik ki, dissertasiya işi həm ölkəmizdə, həm də ümumilikdə beynəlxalq çərçivədə bu mövzuda ilk dəfə araşdırılan tədqiqat işi kimi qəbul oluna bilər. Bununla yanaşı, elmi iş aviaşirkətlərin kommersiya fəaliyyətinin tənzimləmə əsası olan "hava azadlıqları"nın nəzəri və praktiki problemlərini əlaqəli və geniş şəkildə təsbit edərək bu mövzuda dünyanın müxtəlif bölgələrinin hüquqşünas alimlərinin fikirlərini özündə birləşdirən və yeni yanaşmalar, istiqamətlər müəyyənləşdirən ilk dissertasiya işi hesab oluna bilər.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi kompleks elmi yanaşma əsasında beynəlxalq hava hüququnun beynəlxalq hüquq daxilində müstəqilliyini müəyyən etmək, "hava azadlıqları"nın anlayışı, təsnifatı, beynəlxalq və milli hüquqi aktlarda təsbiti ilə bağlı müasir nəzəri və praktiki problemləri tədqiq etmək, bu istiqamətdə

---

[17] Leiden University in the Netherlands, International Institute of Air & Space Law, Director Prof. Dr. Pablo Mendes de Leon, http://law.leiden.edu/organisation/publiclaw/iiasl/staff/p-mendes-de-leon.html

[18] University of Cologne, Germany / Director of the Institute of Air and Space Law, Prof. Dr. Stephan Hobe, http://ilwr.de/index.php?lang=en&pg=direktor

[19] University of Lapland, Finland, İnstitute of Air and Space Law, Director Dr. LottaViikari http://www.ulapland.fi/InEnglish/Units/Faculty-of-Law/Institutes/Institute-of-Air-and-Space-Law/Director

[20] ABŞ-ın Missisipi Universitetinin Hüquq məktəbinin məsafədən zondlanma, hava və kosmos hüququ üzrə milli mərkəzinin rəsmi internet saytı: http://www.spacelaw.olemiss.edu/about/

beynəlxalq və milli qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər işləyib hazırlamaqdan ibarətdir.

Göstərilən məqsədə nail olmaq üçün tədqiqat işində qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- beynəlxalq hava hüququnu beynəlxalq hüququn müstəqil sahəsi kimi şərtləndirən amillərin müəyyən edilməsi;
- hava və kosmos hüququnun əlaqəliliyi və bu sahədə mövcud beynəlxalq institutların təcrübəsinin ölkəmizdəki tətbiqi məsələlərinin aydınlaşdırılması;
- beynəlxalq hüquq nəzəriyyəsində "hava hüququ" və "aviasiya hüququ" terminlərinin istifadəsi ilə bağlı olan məsələlərə aydınlıq gətirilməsi;
- hava əlaqələrinin nəzəri məsələlərinin şərhi və bu əlaqələrdə əsas istiqamətverici rol oynayan "hava azadlıqları"nın önəminin müəyyən edilməsi;
- "hava azadlıqları"nın tarixi sisteminin inkişaf mərhələlərinin müəyyənləşdirilməsi;
- beynəlxalq hüquqi müstəvidə "hava azadlıqları"nın anlayışının təsbiti ilə bağlı fikirlərin ümumiləşdirilməsi və "hava azadlıqları"na müəllif anlayışının verilməsi;
- "hava azadlıqları"nın sayı ilə bağlı mövqelərin ümumiləşdirilməsi;
- "hava azadlıqları"na yeni hüquqi təsnifatın verilməsi;
- müasir hüquqi tənzimlənmə mexanizmində əsas, köməkçi və ikinci dərəcəli "hava azadlıqları"nın tətbiqi problemlərinin aydınlaşdırılması;
- beynəlxalq səviyyədə köməkçi və əsas "hava azadlıqları"nı təsbit edən dövlətlərarası elektron saziş modelinin tətbiqinin zəruriliyinin əsaslandırılması;
- "hava azadlıqları"nın xüsusi qrupu kimi kabotaj "hava azadlıqları"nın hüquqi təbiətinin müəyyən edilməsi, bu azadlıqlarla bağlı milli qanunvericiliyin təkmilləşdirilməsi.

**Tədqiqatın obyektini** beynəlxalq səviyyədə aviaşirkətlərin kommersiya fəaliyyətinin hüquqi tənzimlənməsi sahəsində yaranan hüquq münasibətləri təşkil edir.

**Tədqiqatın predmetini** beynəlxalq hüquqi aktlar, dövlətlərin aviasiya sahəsində müvafiq qanunvericilik aktları, hava əlaqələri haqqında hökumətlərarası sazişlərdə və beynəlxalq hava hüququ nəzəriyyəsində

mövcud olan problemlərin və müvafiq beynəlxalq təcrübənin öyrənilməsinə dair materiallar təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqat işinin nəzəri əsasını Azərbaycan Respublikasının, Türkiyə Cumhuriyyətinin, Amerika Birləşmiş Ştatlarının, Rusiya Federasiyasının, Çin Xalq Respublikasının, Kanadanın, Fransanın, İtaliyanın, Almaniyanın, Hollandiyanın və s. ölkələrin hüquqşünas alimlərinin beynəlxalq hava hüququ sahəsində araşdırmaları, eləcə də mülki aviasiyaya dair milli və beynəlxalq normativ-hüquqi sənədlər təşkil edir.

Tədqiqat işi yazılarkən ümumhüquqi metodlardan – sistemli təhlil, normativ, elmi və praktik materialların ümumiləşdirilməsi, tarixi yanaşma; xüsusi elmi metodlardan – müqayisəli tədqiqat, məntiqilik və s. metodlardan istifadə edilmişdir. Bununla yanaşı, dissertasiya işində dövlət və hüquq nəzəriyyəsinin, beynəlxalq hüquq və beynəlxalq hava hüququnun konseptual müddəalarına istinad olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** onunla müəyyən olunur ki, o, müasir dövrdə beynəlxalq hava hüququnda “hava azadlıqları”nın nəzəri və praktiki problemlərinin kompleks tədqiqinə həsr olunmuş monoqrafik xarakterli ilk elmi araşdırmadır.

Dissertasiya işinin elmi yeniliyini özündə əks etdirən və müəllif tərəfindən **müdafiəyə çıxarılan elmi müddəalar** aşağıdakılardır:

1. Dissertasiyada beynəlxalq hava hüququnun beynəlxalq nəqliyyat hüququna (və ya digər hüquq sahəsinə) aidiyyəti məsələsi ilə bağlı hüquqşünas alimlər arasında mövcud diskussiya aydınlaşdırılmış və nəzəriyyədə müəyyən olunmuş şərtlərə əsasən hava hüququnun beynəlxalq hüququn müstəqil sahəsi olmasını özündə ehtiva edən belə bir tərif verilmişdir: “Beynəlxalq hava hüququ hava məkanından istifadə ilə əlaqədar dövlətlərarası münasibətləri tənzimləyən normaların məcmusu kimi beynəlxalq hüququn müstəqil sahəsidir.”

2. Tədqiqat işində qarşılıqlılıq prinsipinin dövlətlər tərəfindən təyin edilən aviaşirkətlər arasında hava daşımaları hüquqlarının mübadiləsi zamanı prioritet təşkil etməsi ideyası ön plana çəkilir. Praktiki olaraq hava əlaqələri haqqında ikitərəfli sazişlərə istinadən dövlətlər bir-birlərinə çox hallarda bərabər sayda “hava azadlıqları” təqdim edirlər. Bu prinsipə müəllif tərəfindən “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 944-IIQ nömrəli Qanununa təklif edilən dəyişiklikdə də yer verilmişdir. Bu baxımdan müəllif aviaşirkətlərin kommersiya fəaliyyətinin hüquqi tənzimlənməsində əsas rol oynayan

qarşılıqlılıq prinsipinin beynəlxalq hava hüququnun istiqamətverici prinsipləri sırasına daxil edilməsini təklif edir.

3. Azərbaycan hüquq ədəbiyyatında ilk dəfə olaraq hava və kosmos hüququ arasındakı bağlılıq və əlaqəlilik göstərilərək bu sahələrin beynəlxalq təcrübədə olduğu kimi, ölkədə də birgə araşdırılması məsələləri təklif olunur. Beynəlxalq təcrübədən, əsasən aşağıdakı elmi-tədqiqat müəssisələrinə üstünlük verilir: ABŞ-ın Missisipi Universitetinin Hüquq məktəbinin məsafədən zondlanma, hava və kosmos hüququ üzrə milli mərkəzi, Argentinanın Buenos-Ayres şəhərində yerləşən "Milli hava və kosmos hüququ institutu" adlı elmi-tədqiqat müəssisəsi, Kanadanın Makgil Universitetinin, Finlandiyanın Laplandiya Universitetinin, Almaniyanın Köln Universitetinin, Hollandiyanın Leyden Universitetinin Hava və Kosmos hüququ institutları, Cənubi Koreyanın Koyan şəhərində yerləşən Koreya Aerokosmik Universitetinin aviasiya və idarəetmə kollecinin ümumi nəqliyyat, hava nəqliyyatı, logistika və hava və kosmos hüququ departamenti və s. Beynəlxalq təcrübə nəzərə alınmaqla Milli Aviasiya Akademiyası daxilində də bu ali məktəbin təhsil istiqamətinə uyğun olaraq hava və kosmos hüququ institutu və "hava və kosmos hüququ" adlı magistratura və doktorantura ixtisasının yaradılması məqsədəuyğun hesab edilir.

4. Müəllif tərəfindən "hava azadlıqları" kommersiya hüquqlarının praktikada ikitərəfli müqavilələr çərçivəsində reallaşdırılma mexanizmi kimi qəbul edilərək aşağıdakı kimi daha təfərrüatlı tərifin verilməsi məqsədəmüvafiq sayılır: ""Hava azadlığı" – dövlətlər arasında hava əlaqələri haqqında hökumətlərarası sazişlər əsasında təsbit edilən sərnişin, baqaj və yük daşımalarını həyata keçirmək hüququnu müəyyən edərək müvafiq aviaşirkətlərin kommersiya fəaliyyəti ilə məşğul olmaq razılığı hesab olunur".

5. Tədqiqat işində milli hüquq ədəbiyyatımızda ilk dəfə olaraq "hava azadlıqları"nın inkişaf tarixi sistematik şəkildə, əhatəli formada müəyyən edilmişdir. Müəllif tərəfindən "hava azadlıqları"nın tarixi sisteminin aşağıda qeyd olunan 4 mərhələyə ayrılması daha məqsədəuyğun hesab edilir: Birinci mərhələ - XX əsrin əvvəlləri - "Hava azadlıqları" nəzəriyyəsinin formalaşması; İkinci mərhələ - XX əsrin 1920-1939-cu illəri – "Hava azadlıqları"nın yaranması və inkişafı; Üçüncü mərhələ - Çikaqo konvensiyasının qəbulundan sonrakı dövr (1944); Dördüncü mərhələ - XX əsrin 90-cı illərindən (1992-ci il "Açıq Səma" Sazişi) sonrakı dövr.

6. Dissertasiya işində beynəlxalq hava əlaqələrində əsas istiqamətverici rol oynayan “hava azadlıqları”nın sayının müəyyən edilməsi və hüquqşünas alimlərin fikirləri, ümumnəzəri müddəalar və müasir təcrübə əsas götürülməklə yeni hüquqi təsnifatın verilməsi məsələləri araşdırılmışdır. Tədqiqat işində xarici hüquq ədəbiyyatında “hava azadlıqları”nın təsnifatı məsələləri göstərilmiş və “hava azadlıqları”nın digər növlərinin praktiki baxımdan mövcudluğu araşdırılaraq IV qrup - “kabotaj azadlıqlar”ının təsnifata daxil edilməsi təklifi verilmişdir.

7. Tədqiqat işi daxilində “hava azadlıqları”nın (kommersiya hüquqlarının) hüquqi təbiəti dolğun şəkildə analiz edilərək Azərbaycan Respublikasının bağladığı hava əlaqələri haqqında hökumətlərarası sazişlərdə terminin “hava sərbəstliyi” kimi deyil, məhz “hava azadlığı” olaraq işlədilməsi təklif olunmuşdur.

8. Dissertasiya işində müəyyən olunan hüquqi təsnifata uyğun şəkildə I və II “hava azadlıqları”nı özündə birləşdirən I qrup “hava azadlıqları” (köməkçi “hava azadlıqları”) ilə bağlı əksər hüquqşünas alimlərin fikirləri təhlil edilərək Avropa hüquqşünas alimlərinin fikirlərinin təqdirəlayiq olması ideyası daha çox ön plana çəkilir. Müəllif hesab edir ki, 15 ildir ki, “Beynəlxalq hava əlaqələri zamanı tranzit haqqında” Sazişə qoşulan Azərbaycan Respublikası bu hüquqlara görə öz hava məkanından istifadə edən hər hansı xarici dövlət qarşısında ərazisi böyük olan dövlətlərin praktikasından fərqli şəkildə düzgün və haqlı olaraq heç bir iqtisadi xarakterli əlavə istək irəli sürməyərək digər uçuş hüquqlarını (“hava azadlıqları”nı) tələb etmir.

9. Beynəlxalq hava əlaqələrinin tənzimlənməsi, o cümlədən də fəal mübadiləsinin reallaşdırılması ilə əlaqədar olaraq müəllif hesab edir ki, Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının istiqaməti ilə (İATA) geniş tətbiq olunan elektron aviaşirkətlərarası saziş nümunələri və prinsiplərinə istinad oluna bilər. Müəllif bununla bağlı İKAO çəçivəsində dövlətlər üçün tövsiyə xarakterli qərarla reallaşdırıla bilən, əsas və köməkçi “hava azadlıqları”nın istifadəsini özündə birləşdirən belə bir elektron saziş modelini təklif edir. Dövlətlərarası ilkin elektron sazişin tətbiqi hava daşımalarının həyata keçirilməsi ilə əlaqədar gecikmənin və uzunmüddətli müzakirələrin olmaması nöqteyi-nəzərindən maksimum dərəcədə operativliyi təmin edə bilər.

10. Elmi araşdırmada “hava azadlıqları”nın yeni hüquqi təsnifatı çərçivəsində ikinci dərəcəli “hava azadlıqları” həm nəzəri, həm də praktiki baxımdan (milli və beynəlxalq səviyyədə) geniş şərh edilmiş və bu

azadlıqların beynəlxalq hava əlaqələrində yeri və rolu göstərilmişdir. Burada təsnifata uyğun olaraq V, VI, VII "hava azadlıqları"nı özündə birləşdirən və III qrupa daxil olan ikinci dərəcəli "hava azadlıqları"nın partnyor dövlətlərdən üçüncü ölkəyə müqavilə əsasında hava daşımalarının təmin edilməsi məqsədini ehtiva etməsi fikri müəllif tərəfindən daha qabarıq şəkildə müdafiə edilir.

11. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, Azərbaycan Respublikası ilə digər dövlətlər arasında dəniz ticarət gəmiçiliyi və beynəlxalq avtomobil əlaqələri (daşımaları) haqqında sazişlərində istifadə olunan kabotaj termininin beynəlxalq təcrübə nəzərə alınmaqla, Azərbaycan Respublikasının mülki aviasiya sahəsində də anlayışının verilməsi məqsədəuyğun hesab olunur. Bu baxımdan, "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsinə aşağıdakı məzmunda 1.0.27.-ci yarımbəndin əlavə olunması təklif olunur:

"1.0.27. Kabotaj — xarici dövlətdə qeydiyyatdan keçmiş hava gəmisinin Azərbaycan Respublikasının hava limanları arasında sərnişin, baqaj və yükləri, habelə poçt göndərişlərini daşıması."

12. 1944-cü il 7 dekabr tarixli Çikaqoda imzalanmış Mülki Aviasiya haqqında Beynəlxalq Konvensiyada təsbit edilən xüsusi maddədə kabotaj hava daşımalarının tənzimlənməsinə ayrıca yer verilməsi və Konvensiyanı ratifikasiya edən əksər dünya dövlətlərinin müvafiq qanunvericilik aktında da konkret formada xarici aviaşirkətlərə kabotaj hava daşımalarını həyata keçirməyə icazə verib - verməməsi ilə bağlı münasibət bildirməsi zərurətindən irəli gələrək "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda da bu məsələlərə dövlət mülki aviasiya siyasətinə uyğun olaraq münasibətin ifadə edilməsi təklif edilir.

13. Dövlətin kabotaj hava daşımalarına münasibət bildirməsi məsələsi ilə bağlı üç variant əsas götürülə bilər: İlk varianta əsasən Azərbaycan Respublikasının da bir çox dövlətlər kimi (ABŞ, Rusiya, Türkiyə, İordaniya, Səudiyyə Ərəbistanı Krallığı, Çin Xalq Respublikası və s.) kabotaj hava daşımalarını qadağan etməsi müvafiq qanunvericilik aktında ("Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa) təsbit edilə bilər. İkinci varianta əsasən bir sıra dövlətlərdə olduğu kimi, (Avropa İttifaqı ölkələri, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Belarus, Avstraliya, Sinqapur, Çili, Yeni Zelandiya və s.) xarici aviaşirkətlərin həyata keçirdikləri dövlətdaxili hava daşımalarına icazə verilə bilməsi ilə bağlı müvafiq qanunvericilik aktında konkret müddəa

müəyyən oluna bilər. Şərh olunan məsələ ilə bağlı olaraq daha məqsədəuyğun olan üçüncü varianta üstünlük verilərək "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununun 38-ci maddəsinə aşağıdakı məzmunda 3-cü bəndin əlavə olunması təklif olunur:

"Azərbaycan Respublikası öz iqtisadi və siyasi maraqlarını nəzərə almaqla digər dövlətlə qarşılıqlı əsasda kabotaj hava əlaqələri haqqında saziş imzalaya bilər".

Türkiyə Cumhuriyyətinin Avropa İttifaqına üzv olmaq istiqamətində irəliləməsi və Azərbaycanın Türkiyə ilə hava əlaqələri sahəsində gələcək sıx əməkdaşlığı (məsələn, Qərbi Avropada mövcud olan "Açıq səma" rejiminin gələcəkdə Türk birliyində tətbiq olunması və s.) nöqteyi-nəzərindən "Türkiyə Mülki aviasiya qanunu"nda kabotajla bağlı olan 6-cı və 31-ci maddələrinə buna müvafiq olaraq dəyişiklik edilərək "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa təklif edilən dəyişikliyə üstünlük verilə bilər.

**Tədqiqatın nəticələrinin nəzəri və praktiki əhəmiyyəti** müəllif tərəfindən irəli sürülən mülahizə və təkliflərin Milli Aviasiya Akademiyası və digər ali təhsil müəssisələrinin tədris prosesində, habelə elmi-tədqiqat fəaliyyətində istifadə olunmasından ibarətdir. Dissertasiyanın elmi nəticələri aviaşirkətlərin kommersiya fəaliyyətinin hüquqi tənzimlənməsi məsələlərinin təkmilləşdirilməsində, "hava azadlıqları" ilə bağlı problemlərin araşdırılmasında, beynəlxalq hava hüququ nəzəriyyəsində yeni yanaşmaların müəyyən edilməsində, dövlətlərarası hava əlaqələri haqqında sazişlərin tənzimlənməsində, mülki aviasiya sahəsində milli qanunvericilik aktına və digər normativ-hüquqi aktlara təkliflərin irəli sürülməsində, əsasən də Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının normayaratma fəaliyyəti prosesində geniş şəkildə istifadə edilə bilər.

Bununla yanaşı, dissertasiya tədqiqatının nəticələri "Beynəlxalq hüquq", "Beynəlxalq hava hüququ", "Beynəlxalq nəqliyyat hüququ", "Hava və kosmos hüququ", "Azərbaycan Respublikasının hava hüququ" və s. məsələləri özündə birləşdirən dərslik, dərs vəsaiti və monoqrafiyaların hazırlanması və bu sahədə reallaşdırılacaq elmi-praktiki araşdırmalar zamanı istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur.

Dissertasiyanın əsas müddəaları "Azərbaycan və Avropa: Qarşılıqlı münasibətlərin problemləri və perspektivləri" adlı Bakı Slavyan Universitetinin 10 illiyinə həsr olunmuş VII Respublika Tələbə Elmi-Praktik Konfransının, Bakı Dövlət Universitetinin keçirdiyi "Qloballaşma dövründə insan hüquqları və milli hüquq sistemləri" adlı 10 dekabr Beynəlxalq insan hüquqları gününə həsr edilmiş beynəlxalq elmi-praktik konfransının, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən Doktorantların və gənc tədqiqatçıların XVII və XVIII Respublika elmi konfranslarının, Türkiyə Cumhuriyyətinin İstanbul şəhərində yerləşən Özyeğin universitetində təşkil olunmuş "Beynəlxalq mülki və hərbi aviasiya hüququnda problemlər" mövzusunda beynəlxalq simpoziumun[21], Qafqaz Universitetində keçirilən Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş "Gənc tədqiqatçıların I beynəlxalq elmi konfransı"nın [22], Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) beynəlxalq hüquq kafedrasının 65 illik yubileyi və BMT beynəlxalq məhkəməsinin hakimi, BMT-nin beynəlxalq hüquq komissiyasının üzvü, "Sovet dövlət və hüququ" jurnalının baş redaktoru Fedora İvanoviç Kojevnikovun 110 illiyi ilə əlaqədar adıçəkilən institutda keçirilən "Müasir beynəlxalq hüququn aktual nəzəri məsələləri" adlı beynəlxalq elmi konfransının materiallarında şərh edilmişdir.

Bununla yanaşı, dissertasiya işinin əsas məzmunu, ayrı-ayrı fəsillərdə tədqiq edilən məsələlər doktorantın müxtəlif məcmuələrdə çap edilmiş məqalələrində öz əksini tapmışdır.

**Tədqiqatın strukturu** tədqiqatın məqsədləri, vəzifələri və metodologiyası ilə şərtlənir. Dissertasiya giriş, beş yarımfəsli özündə birləşdirən üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

---

[21] İstanbul Özyeğin Üniversitesi resmi internet sitesi. "Özyeğin Üniversitesi Hukuk Fakültesi Askeri ve Sivil Havacılık Açısından Uluslararası Hukuk Sorunları" sempozyum. http://ozyegin.edu.tr/Events/2012-Events/Askeri-ve-Sivil-Havacilik

[22] Qafqaz University, I International Scientific Conference of Young Researchers devoted to the 90th anniversary of Azerbaijani national leader Heydar Aliyev April 26-27, 2013, http://www.qu.edu.az/en/pages/Abstracts-accepted-by-the-Scientific-Staff-of-the-Conference-Section-I-901832.html

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə seçilmiş mövzunun aktuallığı əsaslandırılır, onun elmi cəhətdən işlənmə dərəcəsi işıqlandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilir, müdafiəyə çıxarılan əsas müddəalar formalaşdırılır və işin təcrübi əhəmiyyəti açıqlanır.

Dissertasiya işinin **"Beynəlxalq hava hüququnda "hava azadlıqları"nın nəzəri və hüquqi əsasları"** adlı birinci fəslində aşağıdakı paraqraflar tədqiq olunur: "Beynəlxalq hava hüququ beynəlxalq hüququn sahəsi kimi", "Beynəlxalq hava hüququnda "hava azadlıqları"nın anlayışı, nəzəri və hüquqi əsasları".

**"Beynəlxalq hava hüququ beynəlxalq hüququn sahəsi kimi"** adlanan birinci paraqrafda beynəlxalq hava hüququnun beynəlxalq hüquq daxilində müstəqilliyi və ya beynəlxalq nəqliyyat hüququna (və ya digər hüquq sahəsinə) aidiyyəti məsələsi ilə bağlı hüquqşünas alimlər arasında mövcud olan xüsusi diskussiya aydınlaşdırılmış və nəzəriyyədə müəyyən olunmuş şərtlərə əsasən beynəlxalq hüququn müstəqil sahəsi kimi beynəlxalq hava hüququna daha təkmil anlayış verilmişdir. Eyni zamanda burada beynəlxalq hava hüququnun "aviasiya hüququ" olaraq adlandırılmaması xüsusiyyətləri və hava və kosmos hüququnun əlaqəliliyi, bağlılığı, bu sahələrin beynəlxalq təcrübədə olduğu kimi ölkədə də, birgə formada elmi-tədqiqat institutu çərçivəsində araşdırılması məsələləri aydınlaşdırılmışdır.

Tədqiqatçı hesab edir ki, beynəlxalq hava hüququnun tənzimlədiyi münasibətlər dairəsinin genişliyi və spesifikliyi bu hüquq sahəsinin beynəlxalq hüquq daxilində müstəqilliyinə gətirib çıxarmışdır. Beynəlxalq hava hüququ əsaslı elementləri, mühüm hüquqi prinsipləri, tənzimlədiyi münasibətlərin spesifikliyi, nəzəri əsasları, tarixi inkişaf mərhələsi (XX əsr ərzində bu sahədə qəbul edilən çoxsaylı konvensiyalar, Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO-nun) həyata keçiridiyi geniş fəaliyyət istiqaməti) və s. xüsusiyyətlərinə görə beynəlxalq nəqliyyat hüququna aid edilməyərək beynəlxalq hüququn müstəqil sahəsi hesab olunur.

Bununla yanaşı, paraqrafda müəllif hava və kosmos hüququ arasında bağlılığı, əlaqəliliyi və yaxınlığı elmi yanaşmalar əsasında sübut etmişdir. O, bu fikrinə istinad edərək Azərbaycanda milli aviasiya kadrları hazırlayan elm-təhsil ocağının daha da geniş surətdə inkişafının təmin edilməsi nöqteyi-nəzərindən Milli Aviasiya Akademiyası daxilində bu ali məktəbin təhsil istiqamətinə uyğun olaraq hava və kosmos hüququ institutunun

yaradılmasını daha məqsədəuyğun hesab edir. Eyni zamanda, müəllif düşünür ki, beynəlxalq ölkələrin bu sahədəki mövcud təcrübəsinə əsasən Milli Aviasiya Akademiyasında da hava və kosmos hüququ adlı magistratura və doktorantura ixtisasının yaradılması uğurlu nəticələr verə bilər. Qeyd edilənlərlə bağlı tədqiqatçı bu gün dünyada XX əsrin 40-cı və 50-ci illərindən etibarən fəaliyyət göstərən çoxsaylı hava və kosmos hüququ institutlarının təcrübəsini əsas götürür. Azərbaycanda belə bir hava və kosmos hüququ institutunun yaradılması adıçəkilən hüquq sahələri ilə bağlı Qafqaz regionu, Balkan regionu, Türkiyə Cumhuriyyəti, MDB ölkələri və bütövlükdə Asiya ölkələri üçün yeni inkişaf modelləri və tendensiyaların yaradılması və sadalanan regionlar üçün vahid mərkəz olaraq formalaşma prosesində mühüm rol oynayaraq çoxsaylı gənclərin cəlb edilməsinə şərait yaradacaqdır.

Bu paraqrafda tədqiq edilən növbəti məsələ "aviasiya hüququ" və "hava hüququ" arasında daha dəqiq və ümumnəzəri tələblərə cavab verən terminin müəyyənləşdirilməsi məsələsidir. Müəllif hesab edir ki, "aviasiya hüququ" hüquqi əsası olmayan "hava hüququ" terminin qondarma əvəzetməsi kimi təhlil oluna bilər. Digər tərəfdən müəllif qeyd edir ki, əgər "aviasiya hüququ" terminini işlətsək bu halda tənzimlənən münasibətlərin böyük bir dairəsi kənarda qalmış olur.

**"Beynəlxalq hava hüququnda "hava azadlıqları"nın anlayışı, nəzəri və hüquqi əsasları"** adlı növbəti paraqrafda beynəlxalq hava hüququnda "hava azadlıqları"nın anlayışı ilə bağlı fərqli fikirlər təhlil edilərək daha dolğun anlayışın verilməsi, "hava azadlıqları"nın sayının müəyyən edilməsi və hüquqşünas alimlərin fikirləri, ümumnəzəri müddəalar və müasir təcrübə əsas götürülməklə yeni hüquqi təsnifatın verilməsi məsələləri araşdırılmışdır. Müəllif "hava azadlıqları"na aşağıdakı qaydada tərif verərək tədqiqat işində bununla bağlı bütün komponentləri şərh edir: "Hava azadlığı" – dövlətlər arasında hava əlaqələri haqqında hökumətlərarası sazişlər əsasında təsbit edilən sərnişin, baqaj və yük daşımalarını həyata keçirmək hüququnu müəyyən edərək aviaşirkətlərin kommersiya fəaliyyəti ilə məşğul olmaq razılığı hesab olunur". Burada eyni zamanda, beynəlxalq hava hüququnda "hava azadlıqları"nın tarixi aspektləri ilə əlaqədar fərqli fikirlər təhlil edilərək beynəlxalq hava hüququnun mövcud 3 inkişaf tarixi mərhələlərinə istinadən qeyd olunan azadlıqların tarixi sistemi müəyyən edilmiş və bunun əsasında ümumnəzəri müddəalar çərçivəsində 4-cü mərhələnin təklifi ilə bağlı məsələlər araşdırılmışdır.

Hüquqşünas alimlərin əksəriyyəti "hava azadlıqları"nı məhz konkret say göstərmək şərtilə növlərə ayırırlar. Tədqiqatçı müxtəlif alimlərin fikirlərini göstərərək 9 "hava azadlığı"nın mövcudluğunu əsaslandırır. O hesab edir ki, "hava azadlıqları"nın növlərini ayrı-ayrılıqda nəzərdən keçirdikdə belə bir nəticəyə gəlmək olur ki, onların məzmunundan asılı olaraq bu azadlıqları qruplaşdırmaq mümkündür. Rus hüquqşünas alimi A.A.Batalov, Hollandiyanın Leyden Universitetinin Beynəlxalq Hava və Kosmos hüququ İnstitutunun direktoru Prof. Pablo Mendes de Leonun fikirlərində qismən də olsa bu səpkili qruplaşdırmaya rast gəlmək mümkündür. Bu baxımdan müəllif tərəfindən rus hüquqşünas alimi S.V.Aseyevin "Nəqliyyat hüququ" adlı dərs vəsaitində təsbit etdiyi "hava azadlıqları"nın onların məzmun və mahiyyətinə uyğun olaraq qruplaşdırılmış formada daha dolğun təsnifat modelinə üstünlük verilir. Müəllif nəticədə bu qənaətə gəlir ki, praktikada istifadə edilən kabotaj azadlıqları (8-ci və 9-cu "hava azadlıqları") hava azadlıqlarının hüquqi təsnifatında da göstərilməlidir. Bu həm də nəzəriyyə ilə praktika arasında ziddiyyətin aradan qaldırılması baxımından çox vacibdir. Müəllif hesab edir ki, 9 "hava azadlığının 4 qrupa ayrılaraq qruplaşdırılması ümumhüquq nəzəriyyəsinin tələblərinə tam şəkildə uyğun olan hüquqi təsnifat modelidir.

**""Hava azadlıqları"nın hüquqi təsnifatı"** adlı II fəsildə müəyyən edilən təsnifata uyğun olaraq **"Köməkçi "hava azadlıqları" (birinci və ikinci "hava azadlığı")"** adlı I paraqrafda müəllif üçüncü ölkəyə gedən uçuş marşrutu üzrə yerləşən dövlətlərin ərazisi üzərindən uçuşun təmin edilməsi ilə bağlı olan kommersiya hüquqlarını şərh edir və özünəməxsus münasibətini bildirir. **"Əsas "hava azadlıqları" (üçüncü və dördüncü "hava azadlığı")"** adlı növbəti paraqrafda o, partnyor dövlətlər arasında müqaviləyə əsasən hava daşımalarının təmin edilməsi ilə bağlı olan kommersiya hüquqlarını şərh edərək praktiki misallarla nəzəriyyədə mövcud olan təsnifatın məqsədəuyğun olduğunu ifadə edir. **"İkinci dərəcəli "hava azadlıqları" (beşinci, altıncı və yeddinci "hava azadlığı")"** adlı III paraqrafda partnyor dövlətlərdən üçüncü ölkəyə müqavilə əsasında hava daşımalarının təmin edilməsi ilə bağlı olan kommersiya hüquqları beynəlxalq və milli praktika nöqteyi-nəzərindən ümumilikdə izah edilir. Adıçəkilən azadlıqların hər bir qrupuna dair müəyyən yeni elmi yanaşmalar göstərilərək bir neçə təklif verilmişdir. "Əsas "hava azadlıqları" (üçüncü və dördüncü "hava azadlığı")" adlı II paraqrafda köməkçi və əsas "hava azadlıqları"nın istifadəsini nəzərdə tutan

beynəlxalq hava əlaqələrinin tənzimlənməsi, o cümlədən də fəal mübadiləsinin reallaşdırılması məqsədi ilə tədqiqatçı hesab edir ki, Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının istiqaməti ilə (İATA) geniş tətbiq olunan aviaşirkətlərarası saziş nümunələri və prinsiplərinə istinad oluna bilər. Burada müəllif konkret formada elektron saziş modelinin üstünlüyünü şərh edir. Praktik nümunələr əsas götürülərək təklif edilən ilkin elektron sazişdə köməkçi "hava azadlıqları"nı da əsas "hava azadlıqları" qrupuna daxil edib, müvafiq standart şərtləri özündə cəmləşdirən hava əlaqələri haqqında sazişin tətbiqinin daha məqbul sayılması fikri təklif edilir. Sonrakı mərhələdə isə mühüm prioritet məsələlərin qarşılıqlı müzakirəsi həyata keçirilərək əsas sazişin də bağlanıla biləcəyi fikri izah edilir. Bu nöqteyi-nəzərdən tədqiqat işində aviasiya məzmunlu, istiqamət rolunu oynaya biləcək mübahisəsiz və standart şərtləri özündə ehtiva edən elektron saziş modelinin bölmələri göstərilmişdir. Tədqiqatçı qeyd olunan elektron sazişin Beynəlxalq Mülki Aviasiya Təşkilatı (İKAO) çərçivəsində mübadilə edilə biləcəyinin səmərəliliyini təsbit etmişdir.

**"Kabotaj "hava azadlıqları"nın hüquqi təbiəti (səkkizinci və doqquzuncu "hava azadlığı") və tətbiqi məsələləri"** adlı III fəsildə "hava azadlıqları"nın təsnifatına müəllif tərəfindən daxil edilən kabotaj azadlıqlarının anlayışı, mahiyyəti, müasir hava daşımalarının hüquqi tənzimlənməsində rolu təhlil edilir. Burada həmçinin müxtəlif ölkələrin müvafiq dövlətdaxili qanunvericilik aktlarında kabotajın (9-cu "hava azadlığı"nın) təsbiti və müqayisəli cəhətlərinin göstərilməsi, bununla bağlı milli qanunvericiliyimizin təkmilləşdirilməsi perspektivlərinin müəyyən edilməsi və hüquqi tənzimlənmə ilə bağlı nəzəri-praktiki məsələlər şərh edilərək bəzi təkliflər verilmişdir.

Müəllif hesab edir ki, ABŞ, Rusiya, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Avstraliya, Çin Xalq Respublikası, Türkiyə, İordaniya, Səudiyyə Ərəbistanı Krallığı, Sinqapur, Çili, Belarusiya, Ukrayna, Özbəkistan, Qırğızıstan, Tacikistan və s. kimi dövlətlər haqlı olaraq müvafiq qanunvericilik aktlarında kabotaj hava daşımalarına münasibət bildirmişlər. Məlum olduğu kimi, 1944-cü il 7 dekabr tarixli Mülki Aviasiya haqqında Beynəlxalq Konvensiyaya qoşulma haqqında Azərbaycan Respublikası Milli Məclisinin 204 nömrəli 14 iyul 1992-ci il

tarixli Qərarı mövcuddur.[23] Konvensiyada bu məsələ ilə əlaqədar xüsusi maddələr olduğu halda "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununda da buna müvafiq olaraq kabotaj hüququ ilə bağlı konkretlik ifadə edilməlidir. Bunu dedikdə dövlətin bu daşımalara icazə verib-verməməsi məsələsi nəzərdə tutulur. Bununla bağlı olaraq müxtəlif alternativlər əsas götürülə bilər. İlk variant kimi Azərbaycan da bir çox dövlətlər kimi kabotaj hava daşımalarını qadağan edə bilər. İkinci variant kimi bu tipli dövlətdaxili daşımalara icazə verə bilər. Nəhayət üçüncü variant isə müəllifin məqbul hesab etdiyi məzmunu özündə birləşdirir. Qeyd edilən üçüncü variant belədir: "Azərbaycan Respublikası öz iqtisadi və siyasi maraqlarını nəzərə almaqla digər dövlətlə qarşılıqlı əsasda kabotaj hava əlaqələri haqqında saziş imzalaya bilər". Onu da qeyd edək ki, araşdırmalar nəticəsində əldə olunan əksər dövlətlərin aviasiya sahəsində mövcud olan dövlətdaxili aktlarında təklif olunan formada maddəyə rast gəlinməmişdir. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa qeyd olunan dəyişikliyin edilməsi bu sahədə olan əsaslı boşluğu aradan qaldıracaqdır.

Məlum olduğu kimi, Türkiyə Cumhuriyyəti öz ərazisində xarici aviaşirkətlərin kabotaj hava daşımalarını həyata keçirməsini qadağan etmişdir. Türkiyə Cumhuriyyətinin Avropa İttifaqına üzv olmaq istiqamətində irəliləməsi, gələcəkdə qardaş ölkə ilə kabotaj hava əlaqələri barəsində qarşlıqlı sazişin imzalanması və bu sahədə iki ölkə arasında geniş əməkdaşlıq baxımından təklif etdiyimiz formada maddənin "Türk mülki aviasiya qanunun"da da dəyişdirilməsi məqsədəuyğun sayıla bilər. Nəticədə bu Azərbaycanın Türkiyə ilə hava əlaqələri sahəsində də mövcud sıx əməkdaşlığını daha da genişləndirə bilər. Bununla yanaşı, yuxarıda qeyd etdiyimiz Azərbaycan və Türkiyə qanunvericiliklərinə ediləcək dəyişikliklər nəticəsində sonrakı mərhələdə isə digər türk dövlətlərinin iştirakı ilə Qərbi Avropada mövcud olan "Açıq səma" rejiminin gələcəkdə Türk birliyində də tətbiq olunması çox təqdirəlayiq ola bilər.

Dissertasiya işinin nəticə hissəsində tədqiqata yekun vurulur və bu sahədə nəzəri və praktiki əhəmiyyət kəsb edən təklif və tövsiyələr irəli sürülür.

---

[23] Azərbaycan Respublikası mülki aviasiya üzrə aşağıdakı beynəlxalq konvensiyalara qoşulub. Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyasının rəsmi internet saytı, http://www.caa.gov.az/

**Dissertasiya işinin əsas müddəaları müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Beynəlxalq hava daşımalarında "hava azadlıqları" // Milli Aviasiya Akademiyasının Elmi əsərləri, № 2, Bakı 2008, səh. 148-158.
2. Hava azadlıqlarının tətbiqi sahəsində Avropa təcrübəsi və Azərbaycan // "Azərbaycan və Avropa : Qarşılıqlı münasibətlərin problemləri və perspektivləri" adlı Bakı Slavyan Universitetinin 10 illiyinə həsr olunmuş VII Respublika Tələbə Elmi-Praktik Konfransının materialları, Bakı 2009, səh. 62-63.
3. Azərbaycan Respublikasında "hava azadlıqları"nın tətbiqi perspektivləri // Milli Aviasiya Akademiyasının Elmi əsərləri, № 2 (1), Bakı 2009, səh. 212-217.
4. Beynəlxalq hava daşımalarında köməkçi "hava azadlıqları" // "Nəqliyyat hüququ" elmi-nəzəri, təcrübi jurnal, № 2, Bakı 2010, səh. 174-182.
5. "Hava azadlıqları" və onların inkişaf tarixi // Milli Aviasiya Akademiyasının Elmi əsərləri, № 2, Bakı 2010, səh. 72-80
6. Beynəlxalq hava hüququnda kabotaj azadlıqların nəzəri və praktiki əsasları // "Nəqliyyat hüququ" elmi-nəzəri, təcrübi jurnal, № 2, Bakı 2011, səh. 101-114.
7. Международное воздушное право как отрасль международного права // "Право и суспільство", № 3, 2012, Киев, Украина стр. 59-64.
8. Beynəlxalq hava hüququnda "hava azadlıqları"nın hüquqi təsnifatı // "Nəqliyyat hüququ" elmi-nəzəri, təcrübi jurnal, № 1, Bakı 2013, səh. 17-27.
9. Beynəlxalq hava hüququnun beynəlxalq hüquq daxilində müstəqilliyi // Milli Aviasiya Akademiyasının Elmi Məcmuələri, Cild 15, № 2, Bakı 2013, səh. 76-81.
10. Beynəlxalq hava hüququ beynəlxalq hüququn sahəsi kimi // Azərbaycan Respublikası Təhsil Nazirliyi Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları II cild, Bakı 2013, səh. 145-146.
11. Beynəlxalq hava hüququnda "hava azadlıqları"nın tarixi aspektləri // "Nəqliyyat hüququ" elmi-nəzəri, təcrübi jurnal, № 3, Bakı – 2013, səh. 58-62.

12. Beynəlxalq hava hüququnda “hava azadlıqları”nın anlayışı və nəzəri əsasları // 10 dekabr Beynəlxalq insan hüquqları gününə həsr edilmiş beynəlxalq elmi-praktik konfrans 13-14 dekabr 2012-ci il, Qloballaşma dövründə insan hüquqları və milli hüquq sistemləri, Cild I, Bakı 2013, səh. 276-282.

13. Beynəlxalq hava hüququnda “hava azadlıqları”nın tarixi aspektləri // Azərbaycan xalqının Ümumilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş “Gənc tədqiqatçıların I beynəlxalq elmi konfransı” Qafqaz Universiteti, Bakı 25-26 aprel, 2013, səh. 235-236.

14. Вопросы правового регулирования каботажа в внутригосударственных актах: сравнительный анализ // Московский журнал международного права – МЖМП (Moscow Journal of International Law (MJİL)) Научно-теоретический и информационно-практический журнал № 3 (91) 2013 июль – сентябрь, Москва, Россия, стр. 104-117.

15. Kabotaj hava daşımalarının hüquqi aspektləri // Azərbaycan Respublikası Təhsil Nazirliyi Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları II cild, Bakı 2013, səh. 281-282.

**Зафиг Закир оглы Халилов**
**“Теоретические и практические проблемы**
**“свобод воздуха” в международном воздушном праве”**

## РЕЗЮМЕ

Рассмотрение теоретических вопросов, связанных со "свободами воздуха", путем их сравнительного анализа и в наиболее целесообразной форме постоянное усовершенствование международного и национального законодательств в рамках международных стандартов, решение правовых проблем, имеющихся в практике, – все это считается одним из самых важных и необходимых направлений развития современного международного воздушного права. Актуальным вопросом сегодняшнего дня является изучение как теоретических, так и практических аспектов "свобод воздуха" в международном воздушном праве и устранение выявленных проблем в данной области.

Диссертацинное исследование состоит из “Введения”, трех глав, охватывающих 5 параграфов, “Заключения”, содержащего предложения по совершенствованию международного и национального законодательства, а также перечня использованной литературы.

Во “Введении” обосновывается актуальность темы, выявленные проблемы, указываются методологические и теоретические основы, научная новизна и практическая значимость исследования.

В первой главе – “Теоретические и правовые основы “свобод воздуха” в международном воздушном праве” комментируются положения ученых-юристов по вопросам международного воздушного права, его относительности к международному транспортному праву (или любой другой отрасли права) или независимости в рамках международного права; раскрываются понятия и формулировки, данные международными экспертами по международному воздушному праву, приводится более четкое определение понятия международного воздушного права. Здесь же рассматриваются связь воздушного и космического права, исследования международных специалистов по этим вопросам, влияние международных институтов в области международного права

на исследования, проводимые в нашей стране, комментируются причины, по которым международное воздушное право не может называться международным авиационным правом. Кроме того, в данной главе анализируются многочисленные мнения, имеющиеся в международном воздушном праве относительно "свобод воздуха" и дается его более полное определение, излагаются мнения ученых-юристов по определению количества “свобод воздуха” и их группировке, приводится новая правовая классификация с учетом общих теоретических концепций и современной практики.

Во второй главе под названием “Правовая классификация “свобод воздуха”” излагается понятие вспомогательных, основных и второстепенных “свобод воздуха”, указывается их место и роль в классификации, определенной в воздушном праве. При этом предпочтение отдается тем комментариям, которые подкреплены теоретическими и практическими примерами. В данной главе приводятся предложения по совершенствованию “свобод воздуха” со ссылкой на практику регулирования международных и внутренних воздушных сообщений.

Третья глава диссертации называется “Правовая природа каботажных “свобод воздуха” (восьмая и девятая “свободы воздуха”) и вопросы их применения". Автором исследования приводится понятие каботажных свобод, комментируется их сущность и роль в правовом регулировании воздушных перевозок (в частности, в рамках политики “Открытое небо”). Также здесь проводится анализ определения каботажа (девятая “свобода воздуха”) и его отличительные особенности в соответствующих внутригосударственных законодательных актах разных стран. В связи с этим в диссертационной работе определяются перспективы совершенствования национального законодательства в данной области, комментируются теоретические и практические вопросы и предлагается ряд важных рекомендаций по правовому регулированию модели, которая может быть применена в будущем в Азербайджане, а также в других государствах.

**Zafik Zakir oglu Khalilov**
**Theoretical and practical problems of**
**"freedoms of air" in international air law**

## SUMMARY

The formation in a more appropriate way of the theoretical issues related to "freedoms of air" in a more purposeful form of comparative analysis, continually improving the international and national legislation related to this law, the solution of legal aspects of existing important problems in practice within the framework of the international standards is considered one of the most important and necessary directions of modern international law. Study of both theoretical and practical problems of "freedoms of air" in international air law and their elimination is considered as today's one of the pressing issues.

The thesis is comprised of Introduction, three Chapters covering 5 paragraphs, the Conclusion which contains the proposals for the improvement of international and national legislation and the list of references.

The Introduction covers the justification of the topic and the urgency of the study of the problem, the methodological and theoretical bases, scientific novelties and practical importance of the issue.

Chapter I named **"Theoretical and legal basis of "freedoms of air" in international air law".** İn this Chapter, a special discussion among lawyer - scientists connected to the matter of the relation of international air law to international transport (or any other field of law) or its independence within international law was clarified, and by commenting the definitions and conceptions given by international experts on international air law, the more improved definition of international air law as a field of international law was given based on terms provided in the theory.

İn addition, the relations of air and space law, related research in the international arena, the impact of institutions in the field of international law on studies in our country, the features of naming international air law as aviation law in the theory of international law were given. At the same time, different views in international air law on "freedoms of air" were analysed, and more comprehensive definition was given, the opinions of lawyer-scientists in the definition of a number of "freedoms of air" and their grouping accordingly, the new legal classification was given in this

Chapter by taking the general theoretical conceptions and the modern practice as a base.

İn the Chapter II named **"Legal classification of freedoms of air"**, the concept of secondary “freedoms of air”, their place and role in air law was shown, the comments with theoretical and practical examples were preferred, and the suggestions were given by referring to practice of regulation on international and domestic air communications of the said freedoms.

The Chapter III is named **“Legal nature of “cabotage freedoms of Air”** (eighth and ninth “freedoms of air”) **and matters of implementation”** As an addition by the author of the dissertation to the classifications of “freedoms of air”, the concept of cabotage freedom is given, its essence and the role in the legal regulation (in particular, within the framework of the "open sky" policy) is commented. As well as the definition of cabotage (“ninth freedom of air”) and its distinctive features in the corresponding inter-state legislative acts of various countries is given here and in this connection perspectives of improvement of the national legislation are identified, theoretical - practical issues are commented and a number of important recommendations related to the legal regulation of the model, which will be applied in Azerbaijan in future and further in Turkey as well, were made.

Çapa imzalanmışdır: 16.09.2014
Kağız formatı: 60x84 1/16
Həcmi: 2 f.ç.v. Tiraj 100

ADNA - nın mətbəəsi
Bakı, Azadlıq prospekti 20

ЗАКРЫТОЕ АКЦИОНЕРНОЕ ОБЩЕСТВО
“АЗЕРБАЙДЖАН ХАВА ЙОЛЛАРЫ”
НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ АВИАЦИИ

*На правах рукописи*

**ЗАФИГ ЗАКИР ОГЛЫ ХАЛИЛОВ**

# “ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ПРОБЛЕМЫ “СВОБОД ВОЗДУХА” В МЕЖДУНАРОДНОМ ВОЗДУШНОМ ПРАВЕ”

Специальность: 5603.01 – Международное право; права человека

**АВТОРЕФЕРАТ**

**Диссертации на соискание
ученой степени доктора философии по праву**

**Баку - 2014**